FEVRAL-2023

TƏHLİL

# AUKUS ÇƏRÇİVƏSİNDƏ HƏRBİ ƏMƏKDAŞLIĞIN DƏRİNLƏŞDİRİLMƏSİ VƏ ALYANSIN GENİŞLƏNDİRİLMƏSİ TƏŞƏBBÜSLƏRİ

## AUKUS-un genişləndirilməsi

2023-cü ilin yanvar ayında qlobal təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməli olduğunu vurğulayan Böyük Britaniyanın İcmalar Palatasının müdafiə komitəsi Avstraliya, Britaniya və ABŞ arasında AUKUS çərçivəsində üçtərəfli təhlükəsizlik paktının Hindistan və Yaponiyanı da daxil edərək genişləndirilməsinə çağırıb. Qeyd edək ki, adı çəkilən komitə Britaniyanın Müdafiə Nazirliyi və ona bağlı qurumların fəaliyyətinə nəzarət edir. AUKUS-un genişlənməsi haqqında təkliflərin səsləndirilməsi ilk hal olmasa da, bunun belə yüksək rəsmi səviyyədə dilə gətirilməsi yeni bir vəziyyətdir.

Xatırladaq ki, AUKUS 2021-ci ilin sentyabrında ilkin olaraq Avstraliya üçün nüvə enerjisi ilə işləyən sualtı qayıqların təminatı sahəsində əməkdaşlıq üçün adı çəkilən dövlətlər tərəfindən yaradılmışdı. Bununla belə, elə ilk vaxtlardan bu formatda əməkdaşlığın çərçivəsi Hind-Sakit okeanı regionunda təhlükəsizlik sahəsində daha intensiv əməkdaşlığı təşviq etmək üçün genişləndirilirdi. AUKUS hal-hazırda süni intellekt, dənizaltı texnologiyaları, hipersonik və əks-hipersonik silahlar, elektron və informasiya müharibəsi sahəsində əməkdaşlıq da daxil olmaqla müxtəlif sahələri əhatə edir. **İlk yaranan vaxt üzv dövlətlər bu paktın gələcəkdə genişlənmə ehtimalının nəzərdə tutulmadığını qeyd edirdilər. Oxşar şəkildə Hindistan və Yaponiyanın da üzvlüyünün nəzərdə tutulmadığı qeyd olunurdu. Hətta Ağ Evin mətbuat katibi Cen Psaki zarafatla demişdi ki, Hindistan və Yaponiya qoşulsa, "Bu nə olacaq? JAUKUS? JAIAUKUS?"**

Xatırladaq ki, Hindistan və Yaponiya artıq ABŞ-ın regionda təşviq etdiyi və Avstraliyanın da üzv olduğu digər əməkdaşlıq platformasının (Quad və ya Quadrilateral Dialogue) üzvüdür. Bəzi analitiklərə görə AUKUS-un genişləndirilməsi və Quad-a üz olan digər iki ölkənin (Hindistan və Yaponiyanın) da qatılması təklifini irəli sürərək Böyük Britaniya Quad+Britaniya çərçivəsi yaratmağa çalışır. Bununla belə AUKUS yaranarkən bəzi müşahidəçilər bu formatın daha fundamental təhlükəsizlik məsələləri ilə məşğul olacağını, bu sahədə Çini provokasiya etməkdən çəkinən Hindistan və Yaponiyanın isə Quad çərçivəsində qeyri-təhlükəsizlik sahəsində əməkdaşlıqla kifayətlənəcəyini qeyd edirdilər. **Buna görədir ki, bu**

**dövlətlərin AUKUS-a daxil edilməsi regionda çox böyük geosiyasi dəyişiklik olar və Çinə qarşı ABŞ-ın “Asiya NATO-su” və ya “Global NATO” yaratmaq planını nümayiş etdirəcək.** Təbii olaraq, bu gedişat Çini çox hiddətləndirir və rəsmi Pekin Vaşinqtonu Asiyada konfrantasiyanı körükləməkdə və müharibə ocağı yaratmaqda günahlandırır.

**Avstraliyaya nüvə enerjisi ilə işləyən sualtı qayıqlar verilməsi**

Çini AUKUS-un genişlənməsi ilə yanaşı bu alyansın yarandığı ilk günlərdən qüvvədə olan Avstraliyaya nüvə enerjisi ilə işləyən sualtı qayıqların verilməsi planı çox narahat edir. Bu layihəyə əsasən Avstraliya qısa zamanda 8 nüvə enerjisi ilə işləyən sualtı qayıq əldə edəcək və bunlar üçün ölkənin şərq sahillərində 3 baza inşa edəcək. Qeyd edək ki, nüvə enerjisi ilə işləyən sualtı qayıqlar yüksək sürətli strateji silah hesab olunur və tez-tez sudan çıxmağa ehtiyac duymadan uzun müddət sualtında fəaliyyət göstərə bilir. Bu xüsusiyyətləri onu müdafiyə baxımından çox böyük əhəmiyyətli edir. Hazırda belə sualtı qayıqlardan yalnız altı ölkə - İngiltərə, ABŞ, Rusiya, Fransa, Çin və Hindistan istifadə edir. ABŞ təqribən 68 sualtı qayıqla ən böyük arsenala sahibdir, onun ardınca ən azı 29 qayıqla Rusiya və 12 qayıqla Çinin gəldiyi güman edilir.

Çin müxtəlif hüquqi və təzyiq vasitələrindən istifadə edərək Avstraliyaya bu silahların verilməsinin qarşısını almağa çalışır. Rəsmi Pekin Beynəlxalq Atom Enerjisi Agentliyi (MAQATE) çərçivəsində bu silahların Avstraliyaya verilməsinin nüvə sihalının genişləndirilməməsi haqqında beynəlxalq sazişə uyğunluğunu yoxlamaq üçün yoxlanış prosesinə çağırış edir. 2022-ci ilin oktyabrında Çin mətbuatı məlumat yaydı ki, Çinin Birləşmiş Millətlər Təşkilatının (BMT) Vyanadakı daimi nümayəndəliyi BMT-nin nüvə nəzarəti orqanının iclasında AUKUS ölkələrinin nüvə silahı ilə işləyən sualtı qayıqlar üzrə Avstraliya ilə əməkdaşlığını legitimləşdirmək üçün təklif etdiyi düzəlişin qarşısını alıb. Rəsmi Pekin MAQATE-nin baş direktoru Rafael Grossini sərt tənqid edərək, onu AUKUS dövlətlərinin əmrini yerinə yetirməkdə və beynəlxalq ictimaiyyəti aldadan hesabat yaymaqda günahlandırır. **Çin rəsmiləri bəyan edir ki, geosiyasi qarşıdurmanı körükləməklə yanaşı, Avstraliyaya nüvə enerjisi ilə işləyən sualtı qayıqların verilməsi açıq-aşkar nüvə silahının yayılmaması haqqında beynəlxalq razılaşmanı pozur. Nüvə silahı sahib olan dövlətlərdən (ABŞ və Böyük Britaniya) nüvə silahı olmayan dövlətə (Avstraliya) silah mahiyyəti daşıyan nüvə materiallarının ötürülməsi “təhlükəli presedent” yaradır. Qeyd edək ki, Çinin bu məsələdə “presedent” amilini vurğulamasına xüsusi diqqət yetirilməlidir. Tərəflər arasında qarşıdurmanın kəskinləşdiyi təqdirdə Çin təzyiq qarşısında olan müttəfiqlərinə belə “texnoloji transfer” həyata keçirə bilər.**

Çin analtikləri xəbərdarlıq edir ki, ABŞ-ın Soyuq Müharibədən sonrakı NATO-nun genişlənməsi vasitəsilə Rusiyaya qarşı irəli sürdüyü strategiyasının demək olar ki, eynisini indi də Çinə qarşı tətbiq edir. Avropanı özündən təhlükəsizlik sahəsində asılı hala salaraq, köhnə qitnəni Rusiyaya qarşı effektiv istifadə edən ABŞ-ın indi də eyni mexanizm ilə Asiya ölkələrini özündən asılı hala saldığını qeyd edirlər. Onların fikrincə, AUKUS sazişi Avstraliyanı onsuz da məhdud olan strateji avtonomiyasını daha da məhdudlaşdırır və onu ABŞ-ın xarici siyasətinin bir alətinə çevirir. Çinli analitiklər Avropada ABŞ-ın bu strategiyasının sonda Rusiyanı gücdən istifadə etməyə məcbur etdiyini və onun daxili və xarici vəziyyətinə böyük zərbə vurduğunu xatırladaraq, Çinin **“ikinci Rusiya”** olmaması üçün tədbirlər görməli olduğunu vurğulayırlar.

**Global-NATO**

AUKUS-un genişləndirilməsi və hərbi əməkdaşlığın dərinləşdirilməsinə paralel olaraq, Avropa dövlətləri ilə Şərqi Asiya ölkələri arasında da bu sahədə addımların atılması Çinin "Global NATO" ilə bağlı narahatlıqlarını artırır. Son aylarda bu istiqamətdə baş verənlərə bu baxımdan xüsusi diqqət yetirilməlidir. Yanvarın 29-dan Fevralın 2-ə qədər Cənubi Koreya və Yaponiyada səfərdə olan NATO-nun Baş Katibi Yens Stoltenburgun gündəliyində təkcə bu dövlətlərin Ukraynaya hərbi yardım və Rusiyaya qarşı görülən tədbirlərə dəstək göstərilməsi yox idi. O, eyni zamanda Çin ilə "sistemik rəqabət" fonunda bu ölkələrin siyasətini gözdən geçirmək və əməkdaşlığı dərinləşdirmək məqsədi ilə, regiona səfər etmişdi. İkinci Dünya Müharibəsindən sonra konstitusional olaraq hərbi gücünə böyük məhdudiyyətlər qoyulmuş Yaponiyanın bu siyasi xəttini tədricən dəyişməsi regionda və qlobal miqyasda geosiyasi status-kvonun yenidən qurulması deməkdir. Qeyd olunur ki, Britaniya Yaponiya ilə təhlükəsizlik sahəsində yeni əməkdaşlıq mühiti yaradaraq, həm də bu ölkənin yenidən militarizasiyasına qapı açır.

Yanvar ayında Britaniya və Yaponiya arasında imzalanmış Reciprocal Access Agreement (RAA – Qarşılıqlı Giriş Müqaviləsi) ilə bu iki dövlətin Avro-Atlantik məkanın təhlükəsizliyi ilə Hind-Sakit məkanın təhlükəsizliyini NATO-nun 2022-ci il Strategiya Konsepsiyasına uyğun olaraq əlaqələndirildi. Bu müqavilə keçən ilin sonunda Yaponiya, Britaniya və İtaliya arasında imzalanmış Global Combat Air Programme (GCAP – Qlobal Döyüş Hava Programı) müqaviləsinin ardınca növbəti ciddi addım oldu. Qeyd edək ki, GCAP-a görə bu üç dövlət döyüş təyyarələrinin istehsalı üçün beynəlxalq koalisiya yaradır. Bu müqaviləyə görə tərəflər 2035-ci ilə qədər yeni nəsil döyüş təyyarələrinin tədarükünə başlayacaq və bu Yaponiyaya F-2, Britaniyaya isə Eurofighter Typhoon döyüş təyyarələrini yeni təyyarələr ilə əvəz etməyə imkan yaradacaq. Britaniya üçün bu sazişlər onun Hind-Sakit Okeandakı təsirini artırır, Yaponiya üçün isə İkinci Dünya Müharibəsindən sonra məhdudlaşdırılmış hərbi gücünü gücləndirmək imkanı yaradır. Bu baxımdan heyrət doğuran bir fakt odur ki, Britaniya rəsmiləri RAA müqaviləsi ilə 1902-ci il İngilis-Yapon sazişi arasında müqayisə aparır. **Xatırladaq ki, 1902-ci il sazişi Rusiyanın şərqə doğru genişlənməsinin qarşısını almaq məqsədi daşıyırdı və növbəti 20 il ərzində Yaponiyanın sürətli militarizasiyası və sonda Asiyada böyük dağıdıcı ekspansiyası ilə nəticələndi. Bu dəfə bu ölkələr Çinə qarşı güclərini birləşdirmək və bu yolda remilitarizasiya yolunu tutur.**

Çini Yaponiyanın indiyə qədər üzləşdiyi "ən böyük strateji problem" kimi xarakterizə edən Yaponiyanın yeni Milli Təhlükəsizlik Strategiyası ölkənin milli təhlükəsizliyinə qarşı yaranmış təhdidlərə qarşı bütün imkanların səfərbər edilməsini və eyni zamanda növbəti beş il ərzində təxminən hazırda 50 milyard dollarlıq illik hərbi büdcəni 318 milyard dollara qədər artırmağı hədəfləyir. Bu onu dünyada 3 və ya 4-cü ən böyük hərbi gücə çevirəcək.

**Xülasə**

2023-cü ilin yanvar ayında Böyük Britaniyanın İcmalar Palatasının müdafiə komitəsi Avstraliya, Britaniya və ABŞ arasında AUKUS çərçivəsində üçtərəfli təhlükəsizlik paktının Hindistan və Yaponiyanı da daxil edərək genişləndirilməsinə çağırıb. AUKUS-un genişlənməsi haqqında təkliflərin səsləndirilməsi ilk hal olmasa da, bunun belə yüksək rəsmi səviyyədə dilə gətirilməsi yeni bir vəziyyətdir. Təbii olaraq, bu

gedişat Çini çox hiddətləndirir və rəsmi Pekin Vaşinqtonu Asiyada konfrantasiyanı körükləməkdə və müharibə ocağı yaratmaqda günahlandırır. Çini AUKUS-un genişlənməsi ilə yanaşı bu alyansın yarandığı ilk günlərdən qüvvədə olan Avstraliyaya nüvə enerjisi ilə işləyən sualtı qayıqların verilməsi planı çox narahat edir. Bu layihəyə əsasən Avstraliya qısa zamanda 8 nüvə enerjisi ilə işləyən sualtı qayıq əldə edəcək və bunlar üçün ölkənin şərq sahillərində 3 baza inşa edəcək. **Çin rəsmiləri bəyan edir ki, geosiyasi qarşıdurmanı körükləməklə yanaşı, Avstraliyaya nüvə enerjisi ilə işləyən sualtı qayıqların verilməsi açıq-aşkar nüvə silahının yayılmaması haqqında beynəlxalq razılaşmanı pozur. Nüvə silahı sahib olan dövlətlərdən (ABŞ və Böyük Britaniya) nüvə silahı olmayan dövlətə (Avstraliya) silah mahiyyəti daşıyan nüvə materiallarının ötürülməsi "təhlükəli presedent" yaradır.** Qeyd edək ki, Çinin bu məsələdə "presedent" amilini vurğulamasına xüsusi diqqət yetirilməlidir. Tərəflər arasında qarşıdurmanın kəskinləşdiyi təqdirdə Çin təzyiq qarşısında olan müttəfiqlərinə belə "texnoloji transfer" həyata keçirə bilər. AUKUS-un genişləndirilməsi və hərbi əməkdaşlığın dərinləşdirilməsinə paralel olaraq, Avropa dövlətləri ilə Şərqi Asiya ölkələri arasında da bu sahədə addımların atılması Çinin "Global NATO" ilə bağlı narahatlıqlarını artırır. Son aylarda xüsusilə Britaniyanın öncüllüyü ilə Yaponiya ilə Avropa dövlətləri arasında hərbi əməkdaşlığın dərinləşdirilməsi və bu Asiya dövlətinin növbəti beş il ərzində hərbi büdcəsini hazırkı 50 milyard dollarlıq səviyyədən 318 milyard dollara çatdırması planı bu ölkənin Qərbin dəstəyi ilə remilitarizasiya siyasəti yeritdiyini göstərir. Tərəflər arasında bu səviyyədə qarşıdurma regionda silahlanma yarışına aparır və bölgədəki sülh və təhlükəsizlik üçün risklər yaradır.

**Müəllif:**

**Dr. Vasif Hüseynov, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində (BMTM) şöbə müdiri**